# Köhnə ilin yeni ünvanları






İyulun 14-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 5 saylı Bakı “ASAN xidmət” mərkəzinin açılışı olub. Prezident İlham Əliyev açılış mərasimində iştirak edib.

Həmin vaxt ölkə üzrə 8 “ASAN xidmət” mərkəzi fəaliyyət göstərirdi. Onlardan 4-ü paytaxtda, 4-ü regional mərkəz olmaqla Sumqayıt, Gəncə, Sabirabad və Bərdədədir. Fəaliyyətə başlayan yeni Bakı şəhər 5 saylı “ASAN xidmət” mərkəzi paytaxtda qeydiyyatda olan sakinlərə xidmət edir.









Bu mərkəzlərə daxil olan müraciətlər arasında şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat fəaliyyəti, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı olan xidmətlər üstünlük təşkil edir. Əgər əvvəllər “ASAN xidmət” mərkəzlərində 23 hüquqi xidmət həyata keçirilirdisə, indi 10 dövlət orqanı tərəfindən 30 növ xidmət göstərilir. Eyni zamanda, mərkəzdə 30 növ funksional yardımçı xidmətlər təşkil edilib. Bütün bunlar dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında ölkə rəhbərliyinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir.

5 saylı “ASAN xidmət” mərkəzi bu funksiyaları yerinə yetirmək üçün hər cür şəraitlə təmin olunub. Bundan başqa, mərkəzə müraciət edən vətəndaşların rahatlığını təmin etmək üçün 150 yerlik avtomobil dayanacağı yaradılıb və buradakı yerüstü keçid piyadaların təhlükəsiz hərəkətini təmin edir.



Prezident İlham Əliyev paytaxtın Pişəvəri, Cavad xan və Hüseyn Seyidzadə küçələrində aparılan abadlıq və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub.

Pişəvəri, Cavad xan və Hüseyn Seyidzadə küçələrində ümumilikdə 300 min kvadratmetrə yaxın sahəyə asfalt döşənib, yol işarələri ikikomponentli yüksək keyfiyyətli boyalarla rənglənib. Pişəvəri küçəsi ikiistiqamətli və dördzolaqlı olmaqla, genişləndirilərək əsaslı şəkildə yenidən qurulub. Küçə boyu səkilər tamamilə yenilənib, ən müasir işıqlandırma sistemi quraşdırılıb, yeni yaşıllıq zolaqları salınıb. Cavad xan və Hüseyn Seyidzadə küçələrinə də yeni asfalt örtük döşənib, səkilər, yolötürücüsü yenidən qurulub, ətraf abadlaşdırılıb, yeni yaşıllıq zolaqları salınıb, müxtəlif ağac və gül kolları əkilib. Əsaslı şəkildə yenidən qurulan bu küçələrin hamısında yeraltı kommunikasiyalar və su xətləri dəyişdirilib, təzə işıqlandırma sistemi qurulub.



Avqustun 8-də Siyəzən-Məşrif avtomobil yolunun açılışı olub. Siyəzən rayonunun bir neçə kəndini birləşdirən və hərəkətin intensiv olduğu bu yol uzun müddət təmir edilmədiyindən gediş-gəliş çətinləşmişdi. Eni 5, bəzi yerlərdə isə 7 metr olan üçüncü və dördüncü yola 10-11 santimetr qalınlığında asfalt döşənib. Yol üzərindəki mühəndis-texniki qurğular müasir səviyyədə qurulub. Rayonun 20 yaşayış məntəqəsini birləşdirən və 37,1 kilometr uzunluğunda olan bu rahat və abad yoldan ümumilikdə 4700-dək sakin istifadə edəcək.

* * *



Həmin gün Şabran rayonunda “Qalaaltı Hotel & SPA” müasir müalicə və istirahət kompleksinin açılışı olub. Kompleks Azərbaycanın qədim tarixi-mədəniyyət abidələrindən olan Çıraqqalanın yaxınlığında, sıldırım qayanın altında yerləşir. Dəniz səviyyəsindən 700 metr yüksəklikdə, məşhur “Qalaaltı” kurortunun bazasında inşa edilib. Təxminən 7,1 hektar sahəyə malik kompleksdə 354 nəfəri qəbul edə biləcək hotel, villa və kotteclər var.

Bakıdan 127 kilometr məsafədə yerləşən bu kompleksin 171 otaqdan ibarət hotel binası ən müasir standartlara cavab verir.





Burada gözoxşayan interyer işləri aparılıb, müxtəlif tədbirlərin keçirilməsi üçün iclas və konfrans zalları yaradılıb. Binadakı 112 superior otağının 33-ü iki, 79-u bir nəfərlikdir. Bundan başqa, burada 11 suit və bir lüks otaq da var. Kompleksdə istər uzunmüddətli müalicəvi istirahət, istərsə də həftə sonlarında asudə vaxt keçirmək üçün hər cür şərait yaradılıb.

Hər iki açılışla bağlı keçirilən tədbirdə Prezident İlham Əliyev iştirak edib.




Prezident İlham Əliyev avqustun 11-də Cəlilabad rayonuna səfəri çərçivəsində Heydər Əliyev Mərkəzinin açılışında iştirak edib.

İnşasına 2014-cü ildən başlanılan mərkəzin ümumi sahəsi 8800 kvadratmetrdir. Burada ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən muzey yaradılıb. Muzeydə dünya şöhrətli siyasi xadim Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən kitablar, fotolar, fəxri diplomlar və digər sənədlər sərgilənir.





Rayonda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən körpələr evi-uşaq bağçası da istifadəyə verilib. Ümumi sahəsi 1500 kvadratmetr olan məktəbəqədər müəssisə müasir mebel dəstləri ilə təchiz edilib. Burada qrup otaqları balacaların zövqünə uyğun yaradılıb. Yeməkxanada uşaqların normal qidalanmaları üçün bütün imkanlar var. Binadakı yataq və oyun otaqları da balacaların böyük marağına səbəb olub. Bir sözlə, burada uşaqların təlim-tərbiyəsi və gələcəyin sağlam vətəndaşları kimi yetişmələri üçün hər bir şərait yaradılıb.





Səfər zamanı dövlət başçısı Göytəpə şəhərində Heydər Əliyev adına park-bulvarın açılışı mərasimində də iştirak edib. Yeni obyektin tikintisinə 2014-cü ilin may ayından başlanmışdı. Burada sakinlərin istirahətini dolğun və mənalı təşkil etmək məqsədilə bütün zəruri işlər görülüb. Parkın ətrafına 5 min kvadratmetrlik asfalt döşənib, yeni elektrik xətləri çəkilib. Ətrafda bütün evlər və ictimai obyektlər abadlaşdırılıb.



Səfər zamanı dövlət başçısı “Avanqard” MMC-nin Cəlilabad rayonundakı taxılçılıq təsərrüfatı ilə də tanış olub. Təsərrüfatda müasir texnologiyaların tətbiqi nəticəsində torpağın münbitliyinin artırılmasına, suvarma suyuna qənaət olunmasına, torpağın şoranlaşması və eroziyaya uğraması prosesinin qarşısının alınmasına və ən əsası, orta məhsuldarlığın azı iki dəfə artırılmasına şərait yaradılıb. Təsərrüfatda ərzaq buğdasının orta məhsuldarlığı 57-60 sentnerdir ki, bu da ölkə üzrə göstəricidən iki dəfəyədək çoxdur. Yeni təsərrüfat ərzaq buğdasına, yüksək reproduksiyalı buğda toxumuna, heyvandarlıqda və quşçuluqda istifadə edilən və əsasən idxal olunan yem məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsinə imkan verir.



Həmin gün ölkə rəhbəri Alar-Təzəkənd-Üçtəpə-Əliqasımlı-Cəfərxanlı avtomobil yolunun açılışında iştirak edib. Təzə yol rayonun 23 mindən çox əhalisinə xidmət göstərir. Yolun istifadəyə verilməsi sakinlərin rahat və təhlükəsiz hərəkətini təmin etməklə yanaşı, həmin kəndlərin inkişafında da mühüm rol oynayır. Avtomobil yolunun ümumi uzunluğu 21 kilometr, eni 8 metrdir. Yol dördüncü texniki dərəcəlidir. Yola 131 min kvadratmetrlik ikiqat asfalt döşənib.

